


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

17 fevral 2023-cü il
cümə

1933-cü ildən çıxır
№ 7 (3621)


# AZƏRBAYCAN AVROPAYA ENERJİ İXRAC EDƏCƏK






Ölkəmizdə icra edilən elektrik enerjisi layihələrinin sırasına fevralın 13-də biri də əlavə olundu. Həmin gün müstəqillik dövrünün 1280 MVt gücündə ən böyük istilik-elektrik stansiyasının təməlqoyma mərasimi keçirildi. Bu istilik elektrik stansiyası Prezident İlham Əliyevin 2022-ci il oktyabrın 25-də imzaladığı sərəncama əsasən Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası sayılan Mingəçevirdəki "Azərbaycan" İES-in ərazisində yaradılır. Bu məqsədlə yeni elektrik stansiyasında İtaliyanın "Ansaldo Energia" şirkətinin istehsalı olan 4 qaz turbini, 4 generator, Çinin "Dongfang Electric" şirkətinin istehsalı olan 4 util qazan və 4 blok transformator quraşdırılacaq. Bundan əlavə, yeni yüksəktəzyiqli qaz xəttinin, qazpaylayıcı stansiyanın, susoyutma, saf su hazırlanma şəbəkəsinin, idarəetmə və mühafizə sistemlərinin qurulması da həyata keçiriləcək. Beləliklə, Azərbaycanın enerji sistemində 1280 meqavatlıq yeni və nəhəng elektrik stansiyası yaradılacaq. Bu stansiya "Azərbaycan" İES-in heç bir infrastrukturu olmadan müstəqil istismar ediləcək.

Qeyd edək ki, respublikamızda generasiya güclərinin artırılması Prezident İlham Əliyevin inkişaf siyasətinin prioritetlərindən birini təşkil edir. Təsadüfi deyil ki, regionların inkişafına dair dövlət proqramlarında bununla bağlı vəzifələr və hədəflər qarşıya qoyulub. Bu illərdə ölkəmizin müxtəlif yerlərində kiçik su-elektrik stansiyaları, o cümlədən modul tipli stansiyalar da tikilib ki, onlar da artan iqtisadi potensiala adekvat olaraq respublikamızın yüksəlişinə böyük töhfələr verir.

Hazırda prioritetlərdən biri də "yaşıl" və hidrogen enerji güclərinin artırılmasıdır. Respublikamızda bu sahədə enerjinin əldə edilməsi üçün böyük mənbələr və imkanlar var.

Respublikamızın əsas hədəflərindən biri də Avropaya elektrik enerjisinin ixracıdır. Artıq ötən ilin dekabrında Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" də imzalanıb. Fevralın 3-də Bakıda "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclası keçirilib. 1280 MVt gücündə istilik-elektrik stansiyasının təməlinin qoyulması bir daha göstərir ki, Azərbaycan tezliklə Avropaya həm də elektrik enerjisi ixrac edəcək.

Təməli qoyulan yeni layihə Azərbaycan-İtaliya münasibətlərinin yüksək səviyyədə olmasının, strateji tərəfdaşlığa əsaslanmasının göstəricisidir. Məlum olduğu kimi, Azərbaycanın Avropa İttifaqına üzv olan ayrı-ayrı ölkələrlə də münasibətləri strateji xarakter daşıyır. Onların sırasında İtaliya ilə münasibətlərin xüsusi yeri var. Ona görə də Prezident İlham Əliyevin qeyd etdiyi kimi, İtaliya şirkətinin bu stansiyanın inşasında iştirakı təsadüfi deyil.

Azərbaycanla İtaliya arasındakı yaxın münasibətlər 44 günlük Vətən müharibəsi dövründə də öz təsdiqini tapmışdı. Xatırladaq ki, müharibə günlərində İtaliyada Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörməti əks etdirən sənədlər qəbul edilmişdi. Hər ötən il, hər ötən ay tariximizə yeni uğurlarla həkk olunur. Azərbaycanın müstəqillik dövrünün ən böyük İES-nin təməlinin qoyulması bunu təsdiq edir. Beləliklə, neftin və təbii qazın ardınca Azərbaycan elekrtik enerjisinin də ixracatçısına çevrilmək yolunda qətiyyətli addımlar atır. Bu baxımdan təməli qoyulan yeni istilik elektrik stansiyası Azərbaycanın qlobal enerji bazarlarında iştirakını daha da gücləndirəcək.



# NAZİR VİLAYƏT EYVAZOV CƏLİLABADDA VƏTƏNDAŞ QƏBULU VƏ SIRA BAXIŞI KEÇİRİB



Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov fevralın 15-də və 16-da Cəlilabad Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Cəlilabad şəhərindəki ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

*Ardı 2-ci səhifədə.*

# NAZİR VİLAYƏT EYVAZOV CƏLİLABADDA VƏTƏNDAŞ QƏBULU VƏ SIRA BAXIŞI KEÇİRİB





*Əvvəli 1-ci səhifədə.*

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Neftçala, Biləsuvar, Cəbrayıl, Cəlilabad rayonlarından qəbula gələn 225 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak edib. 36-sı Vətən müharibəsi iştirakçısı, 4-ü isə şəhid ailələrinin üzvləri olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 154 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

# Polis ömrü örnək ömürdür

Əgər dövlət insan kimi mənəvi-əxlaqi keyfiyyətlər daşıyıcısı olsaydı, birmənalı şəkildə polis onun vicdanı olardı. Çünki, dövlət ədalətlə idarə olunur, “ədalətin ən yaxşı keşikçisi isə vicdandır”,- deyiblər.



Axşamlar başını yastığa qoyub rahat yata bilirsənsə, deməli, yalnız vicdanın qarşısında deyil, həm də bayırda qanunu təmsil edən polis əməkdaşının, obrazlı desək, dövlətin oyaq vicdanının qarşısında təmizsən.

Bu, polisin qanun keşikçisi kimi vəzifələrinin doğru icrası, cəzanın labüdlüyü prinsipinin təzahürü anlamına da gəlir müəyyən mənada. Polis əməkdaşı “qanun keşikçisi” epitetini həyat tərzilə ifadə edəndə isə onun ömrü başqaları üçün də örnəyə çevrilir.

Bu peşəni seçənlər yaxşı bilir ki, iş rejimi qanunla müəyyən edilmiş saatda bitməz, evinin kandarından içəri girəndən sonra belə o, asayiş keşikçisidir. Uniformanı soyunmaqla heç bir paqon sahibi polislikdən azad olmur. Qonşu qapını döyüb kömək istəyə bilər – yardım etməyə borcludur, məhəllədə naməlum şəxs görər – kim olduğunu bilməyə məcburdur, qanunu pozan doğması olsa belə onu öz əlləri ilə ədalətə təslim edər. Bir sözlə, polis üçün yad yoxdur, həmişə doğma vətəndaş, hüquqları qorunmalı olanlar var.



Bu gün soyuğun, şaxtanın, gecə və gündüzün fərqinə varmadan xidmət edən sıravi əməkdaş belə Birinci Qarabağ müharibəsində cəbhədə döyüşən, düşmənə sinə gərən, şəhid olan silahdaşlarının yolunu davam etdirdiyini yaxşı bilir. O, azad olunmuş torpaqlarımızda Böyük Qayıdış üçün sabitliyin, əmin-amanlığın təməllərini atan həmkarları kimi eyni duyğularla çulğalanıb. Çünki qayə bir, amal birdir.



Qəhrəmanlarımızın içdikləri anda sadiqliyi, Vətən sevdalı olduqlarını polisin şanlı tarixi dəfələrlə sübut edib. Bunu Vətən müharibəsində də gördük. Düşmən üzərinə, yəni ölümün üstünə yürüyən hərbçilərimiz arxa cəbhədə əzizlərini, doğmalarını, sevdiklərini polisə əmanət etmənin arxayınlığı ilə zəfərə çatdırdı xalqımızı.

İşimiz nə qədər qanunlar, əmr və göstərişlər kimi standart normalarla müəyyən edilsə də, xidmətin mahiyyətində, mayasında vətəndaş yanğısı olub həmişə və bu, hər bir əməkdaşdan ürək istəyir, işinə könül verməyi tələb edir. Qışın bu soyuq günlərində küçədə köməksiz qalan, sığınmağa yeri olmayan, çətinlik yaşayan vətəndaşımızın qayğısına qalan həmkarlarımız geniş ürəyin, şəfqətli münasibətin daşıyıcılarıdır. Sahibsiz heyvanlar belə bu mərhəmət duyğusunun əhatəsindən kənarda qalmayıb heç zaman. Bu günlərdə ərazidə xidmət aparan DİN Əlahiddə Çevik Polis Alayının əməkdaşlarının oxşar məzmunda internet resurslarında yayımlanan videogörüntülərində də polis ömrünün həmişə görünməyən üzü görünür.



Çətindir, amma baxıb örnək götürüləsi ömürdür.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Təşəkkürlərini belə ifadə edirlər

**Ölkə rəhbərinin vətəndaş müraciətlərinə həssaslıq nümayiş etdirməsi və bu istiqamətdə aidiyyəti orqanlardan fəaliyyətlərində dönüş yaratmalarının tələb olunması vətəndaş məmnunluğu üçün zəmindir.**

Məhz vətəndaş məmnunluğunu xidmətinin prioritet istiqamətlərindən biri hesab edən Daxili İşlər Nazirliyi ünvanlanan müraciətləri, sorğuları qeydə alır, həlli istiqamətində əməli işlər görülür.

DİO olaraq məqsədimiz peşəkar xidmətlə yanaşı, əsl vətəndaş mövqeyi nümayiş etdirməkdir. Fəaliyyətimiz təqdir edilirsə, deməli, ünvanımıza deyilən xoş sözlər haqqımızdır.

“Ölkə və DİN rəhbərliyinin şəhid ailələrinə olan diqqət və qayğısı göstərir ki, tökülən qanlar bihudə getməyib. Bu isə yaramıza məlhəm olur, bizə təpər taparaq həyata tutunmağımıza güc verir. Azərbaycan Polisinin həsas münasibəti rəğbətəlayiqdir. Belə ki, bu günlərdə mənə dəymiş maddi ziyanla bağlı müraciətimə Sabunçu RPİ 12-ci Polis Şöbəsində baxıldı. Araşdırma sayəsində dəymiş ziyan ödətdirildi”. **Bu fikirlər şəhid anası Şahsoltan Əhmədovanın** DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubundandır.



**Paytaxt sakini Çimnaz Abdullayeva** təşəkkür məktubunda yazır: “İctimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə Azərbaycan Polisinin fədakar xidməti danılmazdır. Gecəli-gündüzlü gərgin xidmət apararaq təhlükəsizliyimizin təminatçısı olan daxili işlər orqanları əməkdaşlarının vətəndaş müraciətlərinə həssaslıqla yanaşılması isə bizlərdə məmnunluq yaradır ki, bu da rəğbəti artırır. Problemimlə bağlı Xəzər Payon Polis İdarəsinin rəisinin qəbulunda oldum. Mənə göstərilən həssas rəftara, diqqət və qayğıya görə İdarənin rəhbərliyinə və əməkdaşlarına minnətdarlığımı bildirəm”.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Sözümüz gənclərədir

Daxili İşlər Nazirliyi sistemində təhsilə və xidmətə təşviqlə bağlı rayon, o cümlədən kənd orta məktəblərində yuxarı sinif şagirdləri ilə görüşlər davam etdirilir.

Növbəti belə silsilə görüşlər Qusar rayonunda baş tutub.

Tədbirlər fevralın 13-15 tarixlərində Gədəzeyxur, Bala Qusar, Gündüz Qala, Ənix, Xuray, Çiləgir kənd məktəblərini, eləcə də rayon mərkəzindəki 6 və 1 nömrəli təhsil müəssisələrini əhatə edib.

Qusar Rayon Polis Şöbəsinin təşkilatçılığı və aidiyyəti əməkdaşlarının iştirakı ilə keçirilən görüşlərdə ali təhsil almaq arzusunda olan məktəblilərə DİN-in Polis Akademiyasına qəbul qaydaları barədə ətraflı məlumat verilib. Həmkarlarımız qocaman təhsil ocağında tədris üçün yaradılan müasir şəraitdən, zəngin kitabxanalar, xarici dil kursları, laboratoriyalar, yataqxanalar, idman və atıcılıq meydançaları, habelə asudə vaxtlarının səmərəli təşkili məqsədilə yaradılan imkanlardan bəhs ediblər.







Analoji tədbirlər Gəncə Şəhər Baş Polis İdarəsinin təşkilatçılığı ilə şəhərin bütün orta məktəblərində keçirilib.

“2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişafı Strategiyası”-ndan irəli gələn məsələlər barədə danışan polis əməkdaşları gənclərin yüksək səviyyədə təhsil almaları üçün Polis Akademiyasının əlverişli imkanlar açdığını diqqətə çatdırıblar. Ali təhsil müəssisənin ölkəmizdə savadlı kadrların yetişməsində, daxili işlər orqanlarının hüquqşünaslarla təmin olunmasında mühüm rol oynadığı vurğulanıb, abituriyentlərin seçim mərhələsində bu amili nəzərə alacaqlarına əminlik ifadə olunub.

Sonda şagirdlərin Akademiya ilə bağlı sualları cavablandırılıb.

*“Polis”*

# VƏTƏN onların bizə əmanətidir



Daxili İşlər Nazirliyinin Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan 66 nəfər hərbi qulluqçusundan biri də çavuş İbadov Cavad Cabir oğludur. O, 1996-cı il dekabrın 10-da Masallı şəhərində doğulub.

Cavad 2003-2014-cü illərdə Masallı şəhər şəhid Sakit Tağıyev adına 4 saylı Digah tam orta məktəbində təhsil alıb. 2015-ci il yanvarın 8-də müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hərbi xidmətə ruh yüksəkliyi ilə yollanıb. Daxili Qoşunların 25031 saylı hərbi hissəsində hərbi and içib, 17071 saylı hərbi hissədə təminat və komendant bölüklərində xidmət keçib.

2016-cı il iyulun 1-də Cavad öz arzusu ilə Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Hərbçi peşəsinə rəğbətindən irəli gələn bu qərarı verməzdən öncə valideynləri ilə də məsləhətləşib və onlar tərəfindən dəstəklənib. Müddətdən artıq həqiqi hərbi xidmət keçdiyi 17072 saylı hərbi hissədə xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun atıcısı, sonra isə xüsusi təyinatlı dəstəyə keçirilərək snayper qrupunun heyət nəfəri və xüsusi həmlə qrupunun atıcı-heyvan təlimçisi vəzifələrinə təyin edilib.

Vətən müharibəsi iştirakçısı, 16073 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri, əvvəl 17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri olmuş polkovnik-leytenant Zaur Rəhimov bildirdi ki, Cavad ləyaqətli, intizamlı, işgüzar, hərtərəfli hazırlığa malik, hərbi kollektivin mənafeyini üstün tutan, xüsusi təyinatlı adının nüfuzunu qoruyan hərbi qulluqçu kimi yaddaşında qalıb. Xüsusi təyinatlı dəstənin praktiki təlimlərində atəş, fiziki və taktiki hazırlığını daha da yüksəltmək üçün yorulmadan çalışıb, öz məharəti ilə seçilib.

Hərbi qulluqçumuz Kəlbəcər, Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının ərazilərində erməni işğalçılarına qarşı qətiyyətlə vuruşub: "Cəsur xüsusi təyinatlı idi, müharibənin əvvəlindən son döyüşünədək öndə olub, düşmənin canlı qüvvəsinə qan uddurub. O, oktyabrın 16-da mənim yanımda şəhid oldu. Hadrut işğaldan azad ediləndən sonra yaxınlıqdakı yüksəklikdə mövqelənmiş işğalçılar qəsəbəni şiddətli atəşə tuturdular. Tapşırıq verildi ki, həmin yüksəklik ələ keçirilsin. Döyüş vaxtı bir-birimizə məsafəcə yaxın idik. İriçaplı silahlardan, zirehli texnikalardan atəşə məruz qalırdıq. Düşmən bizi mühasirə həlqəsinə salmağa can atırdı. Cavad bir qədər yuxarıda, mənim önümdə yerə uzanmışdı. Ayağa qalxaraq irəliləməyə cəhd edərkən qəfildən tank mərmisi onun yanına düşərək partladı...

Biz həmin yüksəkliyi düşməndən azad etdikdən, mövqeyimizi möhkəmləndirdikdən bir neçə gün sonra Cavadın və digər şəhidlərin nəşlərini axtarıb tapdıq".

Daxili Qoşunların sabiq hərbi qulluqçusu, İsmayıllı Rayon Polis Şöbəsinin Post-Patrul Xidməti Bölüyünün komandir müavini, Vətən müharibəsi iştirakçısı, polis kapitanı Qurban Səfərli və 17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun yarımqrup komandiri baş çavuş Təbriz Cəbrayılov da Cavadın qorxmazlığından söhbət açdılar.

Füzuli Rayon Qeydiyyat Şöbəsi tərəfindən tərtib edilən 1 dekabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə isə çavuş C.İbadovun 2020-ci il oktyabrın 15-də Xocavənd rayonunda hərbi əməliyyat nəticəsində qəlpələrlə zədələr, travmatik şok, hər iki baldırın amputasiyası səbəbindən şəhid olduğu barədə qeydlər öz əksini tapıb.

Şəhid hərbi qulluqçumuzun nəşi 2020-ci il noyabrın 29-da ailəsinə təhvil verilib və həmin tarixdə Masallı rayonunun Digah kəndinin qəbiristanlığında dəfn olunub.



Azərbaycan Respublikası Prezidentinin 15 və 25 dekabr 2020-ci il, 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamları ilə çavuş C.İbadov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

*Yalçın Abbasov,*
*Daxili Qoşunların veteranı*




# Tərəflər razı qaldı

Paytaxtın Yasamal rayonunda kirayədə yaşayan, Lənkəran rayon sakini Rəhiməxanım Qasımzadə avtomobilinin naməlum şəraitdə zədələnməsi barədə **Yasamal RPİ-nin 29-cu Polis Şöbəsinə** ərizə ilə müraciət edib.

Faktla bağlı şöbənin təhqiqatçısı, polis polkovnik-leytenantı Rahid Xanlarov hadisə yerinə baxış keçirib, həmin ünvandakı videomüşahidə kameraları vasitəsilə hadisəni törətmiş şəxsin kimliyinin müəyyən edilməsi istiqamətində araşdırmalara başlayıb. Müəyyən olunub ki, sözügedən yaşayış binasının yuxarı mərtəbəsində mənzilini təmir etdirən vətəndaş F.Ağayevin ehtiyatsız davranması səbəbindən həmin yaşayış kompleksinin həyətində parklanmış zərərçəkmişə məxsus "Hyundai Elantra" markalı avtomobilin üzərinə beton qırıntıları tökülüb və nəticədə nəqliyyat vasitəsinin banını, eləcə də ön şüşəsini zədələyərək yararsız hala salıb.

Sahə rəisi, polis mayoru Rövşən Məmmədov hər iki vətəndaşı məntəqəyə dəvət edərək dinləyib, tərəflərin qarşılıqlı razılaşması əsasında məsələyə hüquqi qiymət verilib. Şöbə əməkdaşları tərəfindən R.Qasımzadəyə dəymiş maddi ziyan tam ödətdirilməklə vətəndaş məmnunluğu təmin edilib.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Xilaskarı polis oldu



Avtomobil qəzalarından heç kəs sığortalanmayıb. Şübhə yoxdur ki, toqquşma zamanı sürət nə qədər yüksək olarsa, qəzanın nəticələri də bir o qədər ağır olur. Vacib olan isə vaxtında göstərilən köməklikdir.

Bu günlərdə Pirallahı rayonunda baş vermiş ağır yol-nəqliyyat hadisəsi zamanı da həmkarlarımız Türkel Abdıyevaya vaxtında köməklik göstərib, onun həyatını xilas ediblər.

**Pirallahı RPİ Dövlət Yol Polisi Şöbəsindən** aldığımız məlumata görə, sürücü T.Abdıyeva yol ayrıcında "Yol ver" nişanının tələbini pozaraq baş yola daxil olub və bu zaman əsas yolda hərəkətdə olan yük avtomobili ilə toqquşub. Zərbənin təsirindən onun idarə etdiyi "Hyundai" markalı nəqliyyat vasitəsi avtobus dayanacağına çırpılaraq yol kənarındakı yaşıllıq zolağına düşüb. Dislokasiya üzrə xidmətdə olan **DYPŞ-nin əməkdaşları, polis baş serjantı Rahil Əliyev və polis serjantı İlham Əlizadə** dərhal hadisə yerinə yaxınlaşaraq avtomobildə sıxışıb qalan xanım sürücünü oradan çıxarıb, vaxt itirmədən əraziyə təcili tibbi yardım çağıraraq zərərçəkmişə ilkin tibbi yardımın göstərilməsini də təmin ediblər.

*Teymur Əlizadə,*
*polis mayoru*

# ÖLÜMÜN AĞ RƏNGİ

## *Narkomaniya özünə qəsdin ən ağır formasıdır*

Astara Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Şahağacı kənd 2 nömrəli tam orta məktəbdə narkomaniyaya qarşı maarifləndirmə tədbirində çıxış edən RPŞ-nin rəisi, polis polkovniki Azər Cəfərov narkomaniyanın cəmiyyət üçün yaratdığı problemlərdən, insan sağlamlığına ziyanından danışıb. O, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb olunmaları istiqamətində həyata keçirilən uğurlu əməliyyat-axtarış tədbirlərini diqqətə çatdırıb, gəncləri təhsilə, idmana daha çox maraq göstərmələrini tövsiyə edib. Həmçinin, narkotiklərin satışı, alışı və istifadəsi ilə məşğul olanların məsuliyyətə cəlb olunmaları üçün birgə səylərin vacibliyini önə çəkib.





Qax rayon Baydarlı kənd tam orta məktəbində şagirdlər, valideynlər, eləcə də pedaqoji heyət qarşısında çıxış edən RPŞ-nin rəis müavini, polis mayoru Eldəniz Mustafayev narkotik vasitələrin, psixotrop maddələrin, o cümlədən onların prekursorlarının yaratdığı fəsadlarla yanaşı, narkomaniyanın mənəvi və əxlaqi dəyərlərə ciddi zərbə vurduğunu, insanı sözün əsl mənasında "zombiyə" çevirdiyini vurğulayıb. Şagirdlərin diqqətinə çatdırılıb ki, bitki tərkibli narkotik maddələr də sintetik narkotiklər qədər təhlükəlidir və onlar ağır narkotik vasitələr üçün tramplin rolunu oynayır.

Antinarkotik təbliğatı çərçivəsində Bərdə rayonu 7 saylı tam orta məktəbdə baş tutan maarifləndirici tədbirdə RPŞ-nin əməkdaşları, məktəbin müəllim və yuxarı sinif şagirdləri, eləcə də valideynlər iştirak ediblər.

Görüşdə RPŞ-nin rəisi, polis polkovniki Ənvər Həsənov və digər çıxışçılar müasir dövrdə bütövlükdə bəşəriyyət üçün böyük bəlaya çevrilən narkomaniya ilə mübarizənin vacibliyindən, sağlam gəncliyin və etibarlı gələcəyin qurulması baxımından belə maarifləndirici görüşlərin davamlı təşkilinin zəruriliyindən danışıblar, "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın uğurla icra olunduğunu vurğulayıblar. Onlar, iştirakçılara ölkəmizdə narkomaniyaya qarşı mübarizədə həyata keçirilən genişmiqyaslı əməliyyat tədbirləri, eləcə də ötən il ərzində qanunsuz dövriyyədən çıxarılan narkotik vasitələrin çəkisi barədə də ətraflı məlumat veriblər.



Daha bir maarifləndirmə görüşü Yardımlı Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə rayonun Mərkəzi Kitabxanasında keçirilib.

Çıxış edənlər bəşəriyyətin ən ağrılı problemlərindən olan, cəmiyyətin ciddi bəlasına, milli-mənəvi təhlükə mənbəyinə çevrilən narkomaniyanın dinindən, irqindən, milliyyətindən, sosial vəziyyətindən asılı olmayaraq hamı üçün eyni dərəcəli təhlükə olduğunu diqqətə çatdırıblar.

Görüşdə, həmçinin erkən nikah mövzusuna da toxunulub, yeniyetmə vaxtlarında qızların ailə qurmasının onların sağlamlığı üçün ciddi təhlükə törətdiyi qeyd edilib.

Tədbirlərin sonunda məktəbliləri maraqlandıran suallar cavablandırılıb, narkomaniyanın fəsadlarından bəhs edən sosial çarxlar nümayiş etdirilib.

# Kiprdən medalla qayıtdılar



Kiprin Larnaka şəhərində yeniyetmə və gənclər arasında WKF karate üzrə keçirilən 50-ci Avropa çempionatında 48 ölkədən 1114 idmançı iştirak edib.

Milli komandanın tərkibində yer alan DİN İdman Cəmiyyətinin yetirmələrindən Fərid Savadov finalda moldovalı idmançını məğlub edərək çempion olub.

U21 gənclər arasında final döyüşündə Əminağa Quliyev 60 kiloqram çəkidə belçikalı rəqibi üzərində inamlı qələbə qazanaraq 3-cü dəfə Avropa çempionu adını qoruyub-saxlayıb.

Hüseyn Məmmədli isə 67 kiloqram çəki dərəcəsində turnirdən bürünc medalla ayrılıb.

Çempionlarımızı həmin yarışa Əməkdar məşqçi, DİN İdman Cəmiyyətinin Fiziki hazırlıq şöbəsinin rəisi, polis polkovnik-leytenantı Elnur Həsənov hazırlayıb.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ

### 2023/2024-cü tədris ili üçün DİN-in Polis Akademiyasında "hüquqşünaslıq" ixtisası üzrə əyani təhsilə kursantların qəbuluna dair ELAN

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasına "hüquqşünaslıq" ixtisası üzrə əyani təhsilə 300 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə - Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda və həqiqi hərbi xidmətə yararlı olan, buraxılış siniflərində (11-ci sinifdə) oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək olan (2023-cü ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq) Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2023-cü ilin yanvar, aprel və iyul tarixlərində həqiqi hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum edilmiş (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmır.

Sənədlərin qəbulu 2023-cü il yanvar ayının 23-dən mart ayının 4-dək bazar günləri istisna olmaqla hər gün saat 1000-dan 1700-dək namizədin təhsil aldığı təhsil müəssisəsinin yerləşdiyi inzibati ərazi üzrə polis idarə və ya şöbələrində həyata keçiriləcəkdir.

Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

***– şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);***

***– təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);***

***– yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;***

***– ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);***

***– oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;***

***– 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).***

Seçmə komissiyasının vaxtı barədə əlavə məlumat veriləcəkdir. Polis Akademiyası haqqında ətraflı məlumatlar Akademiyanın www.pa.edu.az internet saytında yerləşdirilmişdir.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**
**(012) 454-12-78,**
**(012) 590-98-16,**
**(012) 590-99-47.**

### 2023/2024-cü tədris ili üçün DİN-in Polis Akademiyasına ali təhsilin bakalavriat səviyyəsinə qiyabi təhsil üzrə qəbul

DİN-in Polis Akademiyasında qiyabi təhsilə qəbulla bağlı müsabiqədə - sıravi, kiçik, orta və böyük rəis heyəti vəzifələrində xidmət edən, tam orta, yüksək texniki peşə, orta ixtisas və ya ali təhsili başa vurmaq haqqında müvafiq dövlət nümunəli sənəd almış polis əməkdaşları yanvar - aprel aylarında əsaslandırılmış raportla Azərbaycan Respublikası daxili işlər nazirinə müraciət etməklə iştirak edə bilərlər.

Əməkdaşlar Polis Akademiyasında keçirilən daxili işlər orqanları əməkdaşları üçün nəzərdə tutulmuş fiziki hazırlıq üzrə normativləri yerinə yetirdikdən sonra Akademiyaya qəbul üzrə müsabiqədə iştiraka buraxılırlar.

Akademiyaya qəbul üzrə müsabiqə informasiya-kommunikasiya texnologiyaları vasitəsi ilə Polis Akademiyasında test üsulu ilə keçirilən qəbul imtahanından ibarətdir.

**Daha ətraflı məlumatı DİN-in Polis Akademiyasının - (012) 454-12-78 və ya Baş Kadrlar İdarəsinin - (012) 590-99-82, 19-82 (daxili) nömrəli telefonları vasitəsilə ala bilərsiniz.**

### 2023/2024-cü tədris ili üçün DİN-in Polis Akademiyasına ali təhsilin magistratura səviyyəsinə əyani təhsil üzrə qəbul

Azərbaycan Respublikası DİN-in Polis Akademiyası dövlət hesabına 2 illik əyani təhsil üçün hüquqşünaslıq ixtisasının "Cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası" ixtisaslaşması üzrə magistraturaya qəbul elan edir.

Akademiyanın magistraturasına qəbul olunmaq istəyən əməkdaş sənədlərin qəbulu üçün – (imtahanda iştirak etmək üçün) 2023-cü ilin fevral ayının 21-dək əsaslandırılmış raportla Azərbaycan Respublikasının daxili işlər nazirinə müraciət edə bilər.

Daxili işlər orqanları əməkdaşlarının Akademiyaya qəbulu müsabiqə yolu ilə həyata keçirilir.

Magistraturaya qəbul üzrə müsabiqə Polis Akademiyasında informasiya-kommunikasiya texnologiyaları vasitəsilə test üsulu ilə keçirilən qəbul imtahanından ibarətdir.

İmtahanda bakalavrlara ümumi intellekt səviyyəsinin (məntiqi təfəkkürün) yoxlanılması üçün 50, informatika üzrə 25 və xarici dil üzrə 25 test tapşırığı təqdim olunacaqdır. İmtahanda bakalavrın hər bir test tapşırığına düzgün cavabı bir balla qiymətləndirilir, səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərmir.

**Daha ətraflı məlumatı DİN-in Baş Kadrlar İdarəsinin - (012) 590-99-47, 19-47 (daxili), Polis Akademiyasının - (012) 454-12-78 və ya 454-13-85 nömrəli telefonları vasitəsi ilə ala bilərsiniz.**

**Bu ölkədə poçt polisləri fəaliyyət göstərir. Bəs orada qətllə bağlı cinayət işlərini araşdıran polislər necə adlanır? Vatsap: +99455-875-16-39**

**Mükafatlı sual rubrikası**

## Bu dəfə də qalib xanımdır



Ötən nömrəmizdəki rubrikamızda Mustafa Kamal Atatürkün məşhur Çanaqqala döyüşündə mehmetciyin qəhrəmanlığı, igidliyi barədə qeydlərindən bir parça dərc etmişdik. Oxucularımızdan qeydlərin müəllifini soruşmuşduq.

Sualı ilk olaraq yenə xanım əməkdaşımız cavablandırıb. Beləliklə, qalibimiz Yasamal RPİ dəftərxanasının operatoru, polis kiçik serjantı Əminə Səlimovadır. Mütaliə etməyi sevən həmkarımız bununla türk tarixi haqqında məlumatlı olduğunu göstərib.

Qalib əməkdaşımıza da elə "Onlar türklərdir" kitabını hədiyyə edərək, xidməti fəaliyyətində uğurlar arzuladıq. Qeyd edək ki, kitab keçmiş SSRİ ərazisində yaşayan türklərin başlarına açılan müsibətlərdən, onların Sovet ölüm düşərgələrindəki ağır vəziyyətlərindən, işgəncələrə məruz qalmalarından bəhs edir.

## Boksçumuz birinci oldu






Mərakeşdə 34 ölkədən 201 boksçunun qatıldığı Qızıl kəmər seriyası çərçivəsində ilin ilk turniri keçirilib.

Azərbaycan milli komandasının tərkibində yer alan DİN İdman Cəmiyyətinin yetirməsi 57 kiloqram çəkidə gücünü sınayan Ümid Rüstəmov Ekvador təmsilçisi Jan Kaysedonu, ardınca italiyalı Françesko İozіani turnirdən kənarlaşdırıb.

Ü.Rüstəmov çempionluq uğrunda rusiyalı Eduard Savvin üzərində də inamlı qələbə qazanaraq fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb.

Azərbaycan millisi yarışı 5 medalla başa vurub.

*R.Vəliyev*

## ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

**Nərimanov Rayon Polis İdarəsi** əməkdaşlarının əldə olunan məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində saxlanılan Bakı şəhər sakini F.Musayevdən nömrəsi silinmiş "Makarov" markalı tapança, 1 ədəd daraq və 5 patron aşkar olunaraq götürülüb.

◆◆◆

Binəqədi rayonunun Biləcəri qəsəbəsi ərazisində yerləşən şirkətlərdən birinin anbarından 32.800 manat dəyərində əlvan metalların qeyri-aşkar şəraitdə oğurlanması barədə polisə məlumat daxil olub. **Binəqədi RPİ 6-cı Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində oğurluq əməlində şübhəli bilinən Qubadlı rayon sakini A.Əhmədov, Şəki rayon sakini H.Əhmədov, Bakı şəhər sakinləri E.Əsgərov və R.İbrahimov müəyyən olunaraq saxlanılıblar.

◆◆◆

Fevralın 14-də saat 23 radələrində Xəzər rayonunun Buzovna qəsəbəsində "Toyota" markalı avtomobildə sərnişin olan 2 nəfərin sürücünü döyərək mobil telefonunu almaları və avtomobili əzərək ona 2000 manat dəyərində ziyan vurmaları barədə polisə məlumat daxil olub. **Xəzər RPİ 1-ci Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində quldurluq əməlində şübhəli bilinən Buzovna qəsəbə sakini E.Bəxtiyarlı və qardaşı B.Bəxtiyarlı müəyyən olunaraq saxlanılıblar.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10000
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 19:00
Qiyməti 40 qəpik